**Səfirin İsmayıllı rayonuna səfəri**

20 aprel 2021-ci il tarixində səfir cənab Vada Cüniçi İsmayıllı rayonuna rəsmi səfər emiş, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı cənab Nahid Bağırovla nəzakət görüşü keçirilmişdir. Tərəflər arasında gələcək qarşılıqlı iqtisadi, insan resursları sahəsində əməkdaşlıq və "2022-ci il Yaponiya-Azərbaycan Dostluq İli" tədbirləri ilə dostluq əlaqələrinin inkişaf perspektivləri haqqında müzakirə aparılmışdır.

Səfir həmçinin yapon bağını ziyarət etmişdir. Hal-hazırda Şizuoka prefekturasının İto şəhəri ilə qardaşlaşmış İsmayıllı rayonunda "İto şəhəri Könüllülər Birliyinin" iştirakçıları tərəfindən yapon dili dərsləri online təşkil olunmaqdadır və səfir cənab Vada yapon bağını ziyarət edən zaman yapon dilini öyrənən həmin tələbələrlə də görüşmüşdür.

Daha sonra Azərbaycanda yeganə velosiped zavodu "İsmabike"-a, xalça sexinə, Şahdağ Milli Parkına, İvanovka qəsəbəsi və Lahıc kəndi ziyarət edilmişdir.



İsmayıllı rayon İcra Hakimiyyətinin binasında görüş



Xalça sexini ziyarət



"İsmabike" velosiped zavodunun ziyarəti



Lahıc kəndinə ziyarət



Yapon bağında xatirə şəkli



Tələbələrlə görüş